# TƏBRİK EDİRİK!

## RƏNA İSLAM QIZI MIRZƏZADƏ --60

Azərbaycan Milli Elmlər Akademiyası - Torpaqşunaslıq və Aqrokimya İnstitutunun "Torpaqların genezisi, coğrafiyası və xəritəçiliyi" laboratoriyası nəzdindəki "Torpaq muzeyi" qrupunun rəhbəri, dosent, aparıcı elmi işçi, aqrar elmlər üzrə fəlsəfə doktoru Rəna İslam qızı Mirzəzadə 1959-cu ilin aprel ayında Bakı şəhərində anadan olmuşdur.

R.Mirzəzadə 1983-cü ildə Azərbaycan Dövlət Universitetinin "Biologiya" fakültəsini bitirmiş təyinatla gənc mütəxəsis kimi AMEA-nın Torpaqşunaslıq və Aqrokimya İnstitutuna göndərilmişdir.

Rəna xanım 1985-ci ildən Torpaqşunaslıq və Aqrokimya İnstitutununn torpaqların genezisi, coğrafiyası və xəritəciliyi laboratoriyasında analitik mühəndis kimi elmi fəaliyyətə başlamış, kiçik elmi işçi, elmi işçi, böyük elmi işçi olmuş və hazırda aparıcı elmi işçi vəzifəsində çalışır.

O işlədiyi müddət ərzində özünü təşəbbüskar, bilikli mütəxəssis kimi göstərmiş və 1998-ci ildə "Suvarılan boz-qonur torpaqların antropogen təsirdən dəyişilməsi və onun məhsuldarlıq qabiliyyəti "mövzusu üzrə namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş və Kənd təsərrüfatı elmləri namizədi alimlik dərəcəsini almışdır.

Rəna Mirzəzadə İnstitutun həyatında fəal iştirakı ilə tanınır. O, 2008-ci ildə İnstitutda muzey işinin təşkilində yaxından iştirak etmiş və muzeyin layiqincə alınmasında xüsusi fəallıq göstərmişdir.

AMEA-nın Torpaqşunaslıq və Aqrokimya İnstitutunun "Torpaq muzeyi" torpaq iqlim zonalarını əhatə edən 50-dən çox torpaq monolitləri əsasında yaradılıb. Bu respublikamızın torpaq örtüyünün qızıl fondu olub, eyni zamanda, genetik ehtiyatların öyrənilməsində xüsusi rol oynayır. İnstitutun 70- illik fəaliyyəti dövründə toplanmış eksponatlar bəzi muzeylərdə nümayiş olunur.

"Torpaq muzeyi" torpaqşunaslıq, aqrokimya və ekologiya sahəsində Azərbaycan alimlərinin başlıca mühafizəkarı rolunda çıxış edir.

Dosent Rəna Mirzəzadə hazırda laboratoriyanın tematik planına uyğun" Azərbaycanın müxtəlif şəraitində formalaşan zonalarda torpaq, təsnifatının inkişaf tarixinin araşdırılması" mövzusu üzrə müstəqil iş aparır. Onun 87 elmi əsəri, o cümlədən, 3 kitabçası 2 tövsiyə, biblioqrafiya, məqalə və tezisləri yerli və xarici mətbuatlarda çap edilmişdir.



AMEA- nın 70 illik yubiliyi münasibəti ilə Rəna xanım Mirzəzadə məhsuldar elmi və elmi içtimai fəaliyyətinə görə Fəxri Fərmanla təltif edilmişdir. Dəfələrlə xarici şəhər və ölkələrdə (Moskva, Sank-Peterburq, Rostov-Don, Türkiyə, Avstriya, Almaniya, İtaliya, Fransa və s.) keçirilen konfrans və konqreslərin iştirakçısı olmuş və məruzə ilə cıxış etmişdir.

2011-ci ildə Azərbaycan Qadınlar Cəmiyyətinin 90 illik yubileyinə həsr olunmuş "Müstəqil Azərbaycan Qadını" kitabında Rəna xanım Mirzəzadə barədə xoş sözlər deyilmişdir.

İnstitutun rəhbərliyi və kollektivi institutun əməkdaşı Rəna İslam qızı Mirzəzadənin 60- illik yubileyi münasibəti ilə ürəkdən təbrik edir, ona sağlamlıq və uğurlar arzulayır.

**Əlövsət QULİYEV**
**AMEA-nın Torpaqşunaslıq və Aqrokimya İnstitutunun direktoru**